# ZƏFƏRİN GÖZƏL, VƏTƏN



*Nafilə NAFİ*

## AZƏRBAYCAN QARTALI

***Vətən Müharibəsi qəhrəmanı Babək Qurbanova***

Nuh nəbinin məkanında
Doğuldular iki qardaş,
Əkiz idi bu körpələr,
Olacaqdı yurda sirdaş

Uca ruhlu ataları
Bayram dedi bir tayına,
El atası atasının
Adın verdi öz soyuna!

O birinə "Babək" dedi,
Babək ruhun var eləsin,
Millətinin qüdrətinə
O özünü yar eləsin!

Əl boydaca uşaqlardı
Hamı kimi bu çağalar,
Hər insanın ürəyində
Balasına ümidlər var.

Fidanların birisini
Nənə aldı ağuşuna,
Gözü kimi əzizlədi,
Dolandılar hey başına.

Qohum-qardaş, xalaları
Min can dedi hər sözünə,
Sevgi dolu bir məkanda
Sevgi yığdı o özünə.

Özü qədər dadlı-şirin
Şənlik qatdı bu ocağa,
Qoşuldu o, insanlara,
Heyran oldu dağa-bağa.

Hacı Əhmədli tayfası
Başı üstə tutdu onu,
Keçirdi bir nağıl kimi
Qışlaq kənddə onun günü.

Müslüm baba saz çalırdı,
Sərraf Qasım söz qoşurdu,
Ürəkləri atlanırdı,
Diləkləri hey coşurdu.

Tayfa-toluq bir yumruqdu,
Bir işləyib,bir yeyirdi,
Bu birliyin qüdrətindən
Sazları dastan deyirdi.

Qoşulurdu kişilərə,
Gedirdi o, biçinə də,
Hərdən özün vururdu o,
Ot layının içinə də.

Xarta-xartla kərəntilər
Ot biçərdi, lay vurardı,
Düz-dünyanı bu biçinin
Qoxsu-ətri tez sarardı.

Biçinçilər rəqsi kimi
Baxardı o biçənlərə,
Rəqs edərdi kərəntilər,
Qol çalardı orda hərə.

Gün altında tər tökənlər
Sərin sudan güc alardı,
Yezidə lənət oxudan
Balaca kişi olardı!

Quruyanda biçilənlər,
Tapul edib yığardılar,
Xorumlayıb sonra onu
Bəndəm ilə boğardılar.

Yetişərdi ərik-alça,
Budağından dərərdilər
Çəkərdilər dam üstünə,
Gün altına sərərdilər.

Hər bir işin öz qaydası,
Hər işin öz ahəngi var,
Yaddaşlarda səsi-küyü,
Öz ətiri, öz rəngi var

Hər kəlmənin axışı var,
Əli-üzü, baxışı var,
Əziz, şirin hallarının
Yaddaşlarda naxışı var!

Yaz gələndə nərildəyən,
Yayda həzin nəğmə deyən,
Bol balıqlı çaylarıdır
Qışda susan, tez kiriyən.

Bir tərəfdə Zöhrə nənə
Nehrədə yağ çalxalardı,
Qatıqların bağrın yarıb
Ondan kərə yağ alardı!

Bağ-bağçanı suvarardı,
Çevirərdi güllü bağa,
Ağladardı sazı baba,
Verərdi sözdən sadağa.

İnsanı insan eləyən
Kəndin yeli-quzu başqa,
Kənddə yaşanan həyatın,
Ruhu, dadı-duzu başqa.

El içindən el yanında
Alırdı həyat dərsini,
Oxuyurdu sanki burda
Zamanın avand-tərsini!

Xalaların köməkçisi,
Bu ocağa işıq idi,
Torpağına, vətəninə
Qəlb-könüldən aşiq idi.

Ağaclardan meyvələri
O tökərdi budağından,
Su daşıyıb gətirərdi
Qışlaq kəndin bulağından

Quzuları, çəpişləri
Dağ-çəməndə otarardı,
Onun dostu, yoldaşları
Bala çobanlar olardı.

Kənd həyatı, açıq kitab
Dərs verirdi bu oğlana,
Gələcəyin qəhrəmanı
Söyləmişdi tale ona.

İnsanlara yaxşı-pisi
Kənd öyrədir aydın-incə,
Hər kəsi əzbər bilirsən
Tanımadan belə öncə.

Aydın idi saf su kimi
Hamı hamının gözündə,
Keçmişlər geri gəlirdi
Danışanın hər sözündə.

Yaşanmışlar, yaşananlar,
Hikmətiylə gəldi dilə,
Babək adda bir qəhrəman
Yetişdirdi, verdi elə.

Kənd həyatı ali məktəb,
Həyat dərsidir alana,
Bəsirəti Haqq yanında
Doğadan açıq olana.

Bir də varsa Müslüm baba,
Sərraf Qasım, Zöhrə nənə,
Dərsin alıb keçməlisən
Yürüşlərdə hər vaxt önə.

Dəli-dolu bir həyatı
Qışlaqda Babək yaşadı,
Keçdi həyat məktəbini
Damağında xoş bir dadı.

Gəldi yetkinlik çağına,
Yerə, göyə o sığmadı,
Qaldırırdı zirvələrə
Daşıdığı Babək adı!

Haçalandı, yol göründü,
Uşaqlığı bitirmişdi,
Qorxu-hürkü hisslərini
Düşüncədən itirmişdi.

Tale qaytardı geriyə,
Qayıtdı ata evinə,
Burda özü də bilmədən
Könül verdi bəxt divinə.

Bir gün sinifə girənlər
Vətən, millət söylədilər,
Bakıda hərbi məktəbin
Açılmağından dedilər.

Qanadlandı bircə anda,
Hərə bir qəhrəman oldu,
Dəliqanlı, duza gedən
Bu oğullar bir can oldu.

İstəklərin söylədilər,
Evlərində bu balalar,
Ataları hərb işinin
Dedi ağır möhnəti var

Halva deyil savaş elmi,
Ağırdır onun möhnəti,
Ciddi-ciddi qaydası var,
Qaçılmaz onun töhməti.

Sizlik deyil hərbin yolu,
Döydümölməzlər işidir,
Nənə-baba əzizləyən
Uşaqların keçmişidir...

Salmayın siz özünüzü,
Duran yerdə ağır işə,
Sizin üçün uyğun deyil
Sərt qaydalı belə peşə.

İstərdim ki, mən də olum,
Qəhrəman oğul atası,
Gedib birdən dözməzsiniz,
Ağırdır bunun xatası....

Oğlandır bu, boyun əyib
Oturarmı, susarlarmı?
Balaca Qara balıqdı,
Duran bir üzləri varmı?

Qaynayır qan, oğlandı bu,
Dünyanı yıxaram deyir,
Aləm çıxarsa önümə,
Önündə "mən varam"-deyir!

Odlar yandı sinəsində,
Hərə bir qəhrəman oldu,
Vətən deyilən torpağı
Qaldırdı, çiyninə aldı.

Gizlicə bir addım atdı
Qoşalaşıb iki qardaş,
Yazdırdılar adlarını
Bax beləcə iki sirdaş.

Qərarı verdi özləri,
Yoxdu geri dönən yolu,
Kəhərlənən ruhlarıydı,
Sevinc sardı sağı-solu,

Ruhlarında Babək ruhu,
Kefləri ala buludda,
Uçurdular göy üzündə,
Ürəkləri qızmar odda!

Qərar belə Haqdan idi,
Yoxdu geri dönən yolu,
Mərd igidlər kəhərlənər,
Cəngi sarar sağı-solu!

Vədə yetdi, açıldı yol,
Dedilər getmək zamanı,
Xəbər tutdu onda ata,
Qayğı sardı burda onu...

Beyni qandı, anlamır ki,
Girir necə ağır işə?
Dözərlərmi bu körpələr?
Vurarlarmı hərbi başa?

Keçirdi neçə sınaqdan,
Sağlamlığa sənəd aldı,
İstəməsə ürəyi də,
Aslanlara dayaq oldu!

Gəlib hava limanına,
Öz əliylə saldı yola,
Uğur dedi öz diliylə,
Gözünə yaş dola-dola...

Uçurdu öz yuvasından
Kövrək qanad iki bala,
Açılırdı göy üzünə,
Çıxırdılar uca yola.

Bu vətənin hər yerindən
Gələn kiçik əsgərlərdi,
Ürəyində Babəklərin,
Altunların ruhu vardı!

Boy atacaq bir igid tək
Ev-eşikdən uzaqlarda,
Onlar sinə gərəcəklər
Qalsa nə vaxt Vətən darda!

Düşmənlidir doğma vətən,
Olmasa heç olarmı de?
Yurdun başında bəlası,
Heç quruyub solarmı de?

Çoxları da kənd uşağı,
Təmiz-tarıq böyüyənlər,
Daş novdanın gözlərindən
Nur su içib Haqq deyənlər !

Nənə-baba əzizləyən
Uşaqlardı çoxları da!
Düşünürdü göy üzündə
Qurulubdu taxtları da...

Dözmədilər, vurdu birdən
Qəylən kefi başlarına,
Öz əliylə su qatdılar
Özlərinin aşlarına...

Çoxu qayıtdı geriyə,
Bu qardaşlar mətin oldu,
Dözüm verdi Allah sanki,
Bu dözmək də çətin oldu!

Qeyrətləri bu sınaqdan
Üzlərini ağ çıxardı,
Gələcəkdə qəhrəmanı
Zirvələrə sağ çıxardı!

Onlar Cəmşid yetişdirən
Bir torpaqdan doğulandı,
Nifrətinin caynağında
Düşmənləri boğulandı!

Əzm, zəhmət, dözüm ilə
Keçdi onlar hər sınağı,
Olmadılar bir kimsənin
Nə danlağı, nə qınağı.

Oxudular, öyrəndilər,
Yetişdilər onlar mətin,
Atıldılar ön sıraya
Qeyrət günü bu millətin!

Nə ölüm, qan, dəhşətlərdən
Bir an belə qorxmadılar,
Adlarının üzərində
Ərənlərin öz adı var!

Qurban verir vətəninə
Həyatının hər anını,
Qoca tarix sinəsinə
Yazır vətənin şanını!

Yüz metrlik dalğaların
Üzərində tarix yazır,
Çaqqalların arxasında
Duranların izin pozur.

Mən Babəkəm, tarixləri
Aşıb gələn bir adım var,
Adı ilə düşmənləri
Boğazlayan ustadım var!

Yetişdirdi vətən onu,
Yetişdirdi ruhum onu,
Yetişdirdi düşmənlərin
Gəlib çatsın axır sonu!

Öndə getdi hər döyüşdə
Əlində Babək bayrağı,
Asdı tarix sinəsindən
Yaşadığı şanlı çağı!

Uçurdu o qartal kimi,
Hər nöqtəni bələyirdi,
Tez yıxırdı, dağıdırdı,
"Haydı, irəli" deyirdi!

Qələbənin sürətinə,
Qatırdı o, sürətini,
Göstərirdi bu millətin
İçindəki cürətini!

Çaxdı yerə düşmənini,
Zirvələndi türkünxası!
Kül-kuf oldu, tez dağıldı
Yağının çaqqal yuvası,

Zəhər oldu, zəhərlədi
Düşməni yurdun havası!
Çaldı zəfər şeypurunu
Qartalların haqq davası!

O, Babəkdi, öz adının
Haqqın verdi Babəklərə!
Nur gətirdi, nur payladı,
Nur gözləyən ürəklərə!

"Harop", "Quzğun", "Hermes" idi
Bu gün onun vuran qolu,
Yağıların ciyərini
Çəkib-söküb alan əli!

Qanad açdı Horadizdən
Qondu Murovun başına,
Çaxdı yağı kəlləsini
Dəmir yumruğun daşına!

Nağıl kimi, dastan kimi,
Dili yüyrək ozan kimi,
Çaqqalların başın əzdi
Dağ başına sızan kimi!

Qanadını taxdı həmən,
Qondu Murovun başına,
Süzdü-keçdi Ağdərədən,
Endi Laçının döşünə!

Həftələrlə o, ac-susuz,
Həftələrlə o, yuxusuz,
Zirvələri fəth eləyən
Aslanlarımdı qorxusuz!

Horadizdən Murov dağa,
Cəbrayıldan düz Qoşqara,
Qanadlandı qəhrəmanım,
Yağıları saldı dara!

Gerçək etdi dastanları,
Əfsanəni, nağılları,
Sinəsindən qopdu-çıxdı
Məlikməmməd oğulları!

Nifrətinin odu ilə
Kül elədi o, yağını,
Qırdı-tökdü torpağıma
Dəyən düşmən ayağını!

Sanki sehrli bir əldi,
Toxunanda yandırırdı,
Quduz itlərin qanını
Damarında dondururdu!

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Türkün gücü öz gücünü
Qoydu ərlər meydanına,
Tufan saldı, qorxu saldı
Düşmənlərin zay canına.

Bu zamanın sinəsindən
Qalxdı-getdi göy üzünə,
Qılınc oldu, batdı yenə
Yağıların bəd gözünə!

Vətən necə şirin idi,
Oğlu-qızı can verirdi,
Damarından qan ayırıb
Bu torpağa qan verirdi.

Şəhid adı Vətənimin
Qulağında gurlayırdı,
Dastanların yaddaşında
Qalanlardan dərs deyirdi!

Hadrud, Füzuli, Talışım,
Suqovuşan sevinirdi,
Laçınım, Şuşam, Qubadlım
Azan verib ovunurdu!

Ağdərəmiz Zəngilana
Öz salamın göndərirdi,
Qübarlanıb Zəngəzurum
Mehridən əhval sorurdu!

Sevinənlər göz yaşını
Axıdırdı Araz üstə,
Boylanırdı ümidləri
Gülümsəyən bir yaz üstə!

Qarabağım Kərbəlaydı,
Suqovuşan qətl yeri,
Zəngilanım, gözəl Şuşam
Qanbahası döndü geri!

Canını qurban verənlər
Dastan yazdı göy üzünə,
Toxudular adlarını
Xarıbülbül avazına!

Öz xalqını, millətini
Qaldırdı o, Haqq yanına,
Kimliyini, dəyərini
Qoydu cahanın önünə!

Qanı-canı, ruhu ilə
Döyüşənlər var oldular,
Vətənimin düşmənləri
Qan ağlayıb xar oldular!

Babək kimi oğulları
Ucaltdı yurdun başını,
Azad etdi qeyrətiylə
Hər dağını, hər daşını!

Onlar yudu bu vətənin
Üzündəki üz qarasın,
Məlhəm edib qanlarını
Sağaltdı qeyrət yarasın!

Var elədin, igidlərim,
Altunları var elədin,
Düşmənlərin üzərinə
Kin-küdurəti sən elədin!

Bu vətənin sinəsinə
Taxdın sən də öz adını,
Yandırdın yurd səmasında
Yeni bir Babək odunu!

Qürur duydu Azərbaycan,
Qürur duydu Nuhun yurdu
Söz deyənlər sırasında
Yurdum yenə öndə durdu!

Birləşdirib güclərini
El oldular, sel oldular,
Bir həmlədə qırx dörd günə
Torpağı geri aldılar!

Altunlardı, Babəklərdi,
Bu günümə nur çiləyən,
Bu günlərin Babəkidir:
-Vətən, sənsən qalib,- deyən!

Həyatının hər anını,
Qoyur yurdun ürəyinə,
Sinəsini sipər edir
Qayaların kürəyinə!

İldırımdı yumruqları
Ali Baş Komandanın,
Çaxdı düşmən başında,
Axıtdı murdar qanın!

Sağalmayan yara vurdu
Dünyadakı çaqqallara,
İnsan qanına susayan
Leş hərisi baqqallara.

Atillanın kitabına
İlham Qızıl səhifə yazdı!
Mənəm-mənəm deyənləri
Tarixlərdən belə pozdu!

Türküm qalxdı göy üzünə,
Dünyanın papağı düşdü,
Bu cahan öz tarixində
Yeni dünyayla görüşdü!

Onun adı Azərbaycan,
Elçisi də İlham oldu,
Qan gölündən çıxarılan
Bu cahanın üzü güldü!

Qürurlanır elimin
Uca olan şəstinə!

"Vur" deyir Dəli Domrul
"Vur" deyir Bamsı Beyrək!
Göndəribdir döyüşə
Ruhunu igid Səyrək!

Qurbaninin ruhu şad,
Aşıq Pəri, ruhun şad!
Qovuldu mənfur düşmən,
Yurdun ürəyi dilşad!

Suqovuşan qayıtdı,
Bahar döndü bağçaya!
Mələklər alqış dedi
Araz tək dərdli çaya!

Heydər atanın oğlu
Ataya layiq oldu!
Qan ağlayan yurd yeri
Üzündən qəmi sildi!

# ZƏFƏRİN GÖZƏL, VƏTƏN

## İLHAMIN ASLANLARI
*(poema)*

**1**

Dədə Qorqud boylayır
Dua-səna söyləyir,
İgidlərim, Haqq sizlə,
Qırın yağını deyir!

Qazan xanın qılıncı
Od püskürür düşmənə,
İgidlərin ruhunu
Qaıldırır, çəkir önə!

Gör kimin törəməsi,
Gör kimin siz nəslisiz?!
Qasırğa tək düşmənin
Nəfəsini kəsin siz!

Ürəkdə yanan odu,
Qolda sızlayan gücü,
Gurladın kəlləsində,
Yox olsun hayın bici!

Qoy əsilsiz ölkələr
Səsin salsın içinə!
Yenilir mənfur düşmən
Dövlətimin gücünə!

2

Çəkirdim mən ruhumu,
Ruhum qaçıb gedirdi!
-Torpağın işğaldadır!
Mənə tənə edirdi....

Gəzir murdar yağılar
Şah babanın yurdunda,
Qeyrəti sızıldayır
Dağlarda boz qurdun da.....

Şükür sənə, Allahım,
Şükür sənə, Yaradan!
Nəsib etdin qələbə,
Ah-vay qalxdı aradan!

Ümidlərin pənahı,
Yurdun ALİ RƏHBƏRİ
Verdi öz zamanında
Döyüşə başla əmri!

Od püskürür igidlər,
Qan uddurur düşmənə,
Qopub çıxır ruhundan
Babəklər dönə-dönə!

Ruhları sızıldayan
Sevinir Tomris ana,
Nüşabənin də ruhu
Alqışlar deyir sənə!

**3**

Həcərin yanan ruhu
Su səpir öz üstünə,
Qürurlanır elimin
Uca olan şəstinə!

**4**

Çarpışır aslanlarım,
Düşmənləri dağlayır!
Özgə atı minənlər
İndi yanır, ağlayır!

Ali Baş Komandanım
Fırtınalar əsdirir!
Düşmənin cəzasını
Yerindəcə kəsdirir!

Özgələr hesabına
Meydan sulayan yağı
Öz içində dibəcən
Görür intiqam dağı!

Uçmaqda yurd torpağı
Düşmənlərin başına!
Əsgərim ağu qatır
Makronların aşına!

Çaqqalmı bəsləyirdin?
İlanmı bəsləyirdin?
Sənmi mənim yurduma
Belə kin bəsləyirdin?!

**5**

Fransaya can verən
Mənim Əhmədiyyəm var!
Makron, sən tək tülküyə
Cəsəddən hədiyyəm var!

Yığ, apar o leşləri,
Onların turşusun qoy!
Diz çök, ağla önündə,
Ağla, ağla, axır doy!

Afrikadan çək əli,
Toyuq aparan çaqqal!
Qanında tülkülük var,
Bax, türklərdən ibrət al!

Yum ağzını, yum artıq,
Keçdi-getdi dövranın!
Geri dönməz, anla bir
Keçdi-getdi karvanın!

Koroğlu, Heydər nəsli,
Altunlar törəməsi!
Bir daha qoymaz çıxsın
Düşmənin mənfur səsi!

**6**

Boğulacaq içində,
Qaçacaq külmələrə,
Ona məzar olacaq
Yurdumda hər dağ-dərə!

Allahın lənətindən
Geyməkdə yağı kəfən!
Onları boğmaqdadır
Tanrıdan gələn tufan!

İki yüz il çaqqallar
Yurdumuza uladı!
Qaz verdi atət-matət
Çaqqal meydan suladı!

Cənnət Qarabağıma
Topladı tulaları,
Ağlatdılar otuz il
Dağımda lalaları...

Dünyanı üstümüzə
Gətirdilər, gəldilər,
Arxalı çaqqal olub
Qurdu basar bildilər...

**7**

Bozqurdlar, Turan eli
Qan yaddaşı tufanlı,
Tufanlardan doğulan
Millətin gözü qanlı!

Qəltan edir qanına
Məkrli düşmənləri!
Atıb qaçır kimliyin
Ölümədir yönləri!

Gözün aydın, TÜRK ELİ!
Tənələr yetir sona!
Odisseyin evində
Quldurlar batır qana!

Mənim ordum, döyüşçüm
Qeyrətdən doğulandır!
Mənfur düşmən sürüsü
Kinimdə boğulandır!

Yuyur öz pak qanıyla
Dağı, gülü, yarpağı,
Düşmən ayağı dəyən,
Murdarlanan torpağı!

**8**

Qalmasın yağı izi,
Qalmasın izi-tozu!
Qədəm qoyur yurduma
Qeyrətin bahar-yazı!

Şükür böyüklüyünə,
Şükür güc-qüdrətinə!
Qəlbə fərmanına,
Açdığın bu düyünə!

Quduzlaşan itləri
Saldın pərən-pərənə,
Bülövləyib yurd eşqin
Yenidən verdin mənə!

Torpaq vətən haqqına
Qan istəyir, qan, qan!
Şir ürəkli oğullar
Verir canını qurban!

Murdar düşmən izini
Qazıyır torpağımdan,
Qaldırır bayrağımı
Banı uca dağımdan!

**9**

Sevinir Murov dağım!
Sevinir "Küsən kəndim"!
Yallı tutub oynayır
Millətim, milli andım!

İlham kimi oğulun
Önündə sönüb gedir!
Boyunları əyilib
Arxaya dönüb gedir...

Quzğunları ovlayır,
Axır-gedir qanları,
Dördgöz edir dünyanı
İlhamın aslanları!

*2020 oktyabr*




## ZƏFƏR GÜNÜN MÜBARƏK

Zəfər günün mübarək,
Mənim Azərbaycanım,
İgid oğullar sənə
Fəda elədi canın!

Təki sən yaşa deyib
Atıldılar irəli,
Onlar bir aslan idi
Otuz ildi yaralı!

Silah-sursat bir ayrı,
Diş-dırnağı bir ayrı,
Bir müharibə apardı
Müharibələrdən qeyri!

Top-tüfəngi, əlləri,
Otuz illik nifrəti,
Bir də odlar püskürən,
At oynadan qeyrəti!

Silkələdi dünyanı
Həm qeyrəti, həm əli,
Çaqqalların tıxandı
Səsi, nəfəsi, dili!

Bizlə döyüşə girmək
Hər kəsin işi deyil,
Bizlə üz-üzə gəlmək
Çaqqalın aşı deyil!

Ağladı çaqqalların
Arxasında çaqqallar,
Tilsimini dağıtdı
Bir anda bağlı yollar!

Bağışla Şuşam mənim,
Bağışla gecikmişəm,
Bu illərdə canımı
Sənə qurban demişəm!

Durub sözümün üstə
Can verib aldım səni,
Mən Allahın yanında,
Sən də unutma məni!

Pişvaz elədi məni
Burda Babəkin özü,
Əlincə qəhrəmanı
Altun əlində sazı!

Şah İsmayıl, Nadir şah,
Atilla tək qəhrəman,
Bilgə xaqan, Gültəkin,
Hər biri bir əhliman!

Cavad xanın sevinci
Sığmırdı yerə-göyə!
Çökdürür düşmənləri
İgid oğullar deyə!

Dədə Qorqud, Atatürk
Xeyir-dua verirdi,
Heydər ata saldığı
Bağından gül dərirdi!

İlhama alqış deyir,
Öyürdülər İlhamı,
Sevinirdi, gülürdü
İndi Behiştdə hamı!

*2021.*